AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**“Təhsildə könüllü fəaliyyətin təşkili” qrant müsabiqəsi**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış və təhsil sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları üçün **“Təhsildə könüllü fəaliyyətin təşkili”** qrant müsabiqəsi elan edilir.

Qrant müsabiqəsinin büdcəsi **428000 (dörd yüz iyirmi səkkiz min) AZN** təşkil edir. Müsabiqə büdcəsi dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlər və qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına artırıla bilər.

**Qrant müsabiqəsinin prioritet movzuları:**

1. “Böyük Qayıdış Proqramı”nın icrası çərçivəsində təhsilə ictimai dəstək;
2. Qərbi Azərbaycana qayıdışla bağlı maarifləndirmə;
3. Türk dövlətlərinin təhsil ictimaiyyəti arasında inteqrasiyanın gücləndirilməsi;
4. Təhsil müəssisələrində yaşıl dünyanın təşviqi;
5. Uşaqların təhsil və təhlükəsizlik hüquqlarının təmin edilməsinə dəstək;
6. Peşə təhsilinin təşviqi;
7. Elm və təhsil islahatları ilə bağlı ictimaiyyətin maarifləndirilməsi.

**Qrant müsabiqəsində iştirak sənədləri:**

— İştirakçının müvafiq sahədə peşəkarlığını və təcrübəsini əks etdirən məlumatlar daxil olmaqla rəsmi blankda imzalanmış və möhürlənmiş maraq ifadəsi məktubunun əslinin elektron surəti (PDF);

— İştirakçının dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin əslinin elektron surəti (PDF);

— İştirakçının dövlət qeydiyyatının reyestr çıxarışının əslinin elektron surəti (PDF);

— İştirakçının nizamnaməsinin əslinin elektron surəti (PDF);

— İştirakçının VÖEN-i və ona bağlı bank rekvizitlərinin əslinin elektron surəti (PDF);

— İştirakçının qanuni təmsilçisinin şəxsiyyət vəsiqəsinin *(təqdim edilən sənədlər qanuni təmsilçidən fərqli şəxs tərəfindən imzalandıqda onun şəxsiyyət vəsiqəsinin və imza səlahiyyətlərini təsdiq edən hüquqi sənədin)* əslinin elektron surəti (PDF);

— İştirakçının qanuni təmsilçisi tərəfindən imzalanmış və möhürlənmiş layihə təklifinin əslinin elektron surəti (Forma-1) (PDF).

**Qrant müsabiqəsinə təqdim edilən layihə təkliflərinə verilən ümumi tələblər:**

— Layihə təklifi bu elana əlavə edilən formaya uyğun hazırlanmalıdır;
— Layihə təklifi ən azı 6 aylıq, ən çoxu isə növbəti tədris ilinin sonuna qədəki dövrü əhatə etməlidir;
— Layihə təklifinin ümumi büdcəsi 50000 (əlli min) AZN-dən çox olmamalıdır;
— Təqdim olunmuş layihələrin məzmunu Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları, habelə Elm və Təhsil Nazirliyinin Əsasnaməsi ilə ziddiyyət təşkil etməməlidir;
— Hər bir iştirakçı tərəfindən müsabiqəyə yalnız bir layihə təqdim edilə bilər.

**Qrant müsabiqəsi aşağıdakı mərhələləri əhatə edir:**

— Müraciət mərhələsi;
— Qiymətləndirmə mərhələsi;
— Qrantların ayrılması mərhələsi.

**Müraciət mərhələsi:**

Bu mərhələdə Qrant müsabiqəsinin iştirakçılarına, iştirak sənədlərinə və layihə təkliflərinə verilən tələblər yoxlanılır. Bütün tələbləri tam ödəyən İştirakçılar “Qiymətləndirmə mərhələsi”nə keçir, əks halda Qrant müsabiqəsində iştirakı dayandırılır.

**Qiymətləndirmə mərhələsi:**

Bu mərhələdə layihə təklifləri 100 ballıq şkala üzərindən aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

| |
|---|
| **Uyğunluq – 10 bal** |
| Layihənin müsabiqənin prioritet sahələrinə uyğunluğu və layihə komponentlərinin daxili vəhdəti |
| **Problemin qoyuluşu – 10 bal** |
| Problemin müsabiqənin prioritet mövzuları ilə bağlılığı, onun etibarlı mənbələrlə əsaslandırılması və benefisiarlar üçün aktuallığı |
| **Məqsəd və gözlənilən nəticələr – 15 bal** |
| Layihənin məqsədinin konkretliyi və problemin həllinə yönəlməsi, gözlənilən nəticələrin ölçüləbilən olması və qoyulmuş problemin həllinə zəmin yaratması |
| **Faydalılıq – 20 bal** |
| Layihənin icrasının müsabiqənin prioritet mövzuları üzrə benefisiarlara töhfəsi |
| **Fəaliyyət planı – 10 bal** |
| Görüləcək işlərin ətraflı təsviri və aydınlığı, onların problemin həllinə, layihənin məqsəd və gözlənilən nəticələrinə yönəlməsi, zamanlama, ardıcıllıq və icra mexanizminin qənaətbəxşliyi |

| **İcra potensialı – 5 bal** |
|---|
| Tərəfdaşlıq və kadr potensialının yetərliliyi |
| **Maliyyə səmərəliliyi – 20 bal** |
| Layihənin xərclər smetasının texniki qüsursuzluğu, layihə çərçivəsində görüləcək işlərə və bazar qiymətlərinə uyğunluğu, layihənin ümumi büdcəsində layihə idarəetməsi xərclərinin (layihənin məzmununa birbaşa bağlı olmayan xərclər, məsələn, layihə menecmentliyi, mühasibatlıq, kommunikasiya, bank və rabitə xərcləri və s.) payının azlığı |
| **Monitorinq, qiymətləndirmə və hesabatlılıq – 5 bal** |
| Monitorinq, qiymətləndirmə və hesabatlılıq metodologiyasının, onun əsas nəticə və icra indikatorlarının həyata keçirilməsinin qənaətbəxşliyi |
| **Davamlılıq – 5 bal** |
| Qazanılan müsbət təcrübənin davam etmə metodologiyası, onun təşkilati və maliyyə komponentlərinin dayanıqlılığı |

“Qiymətləndirmə mərhələsi”ndə keçid balı 50 baldır. Qiymətləndirmə nəticəsində 50 və daha yüksək bal toplamış layihələr növbəti mərhələyə keçir, əks halda Qrant müsabiqəsində iştirakı dayandırılır.

**Qrantların ayrılması mərhələsi:**

Bu mərhələdə ən yüksək bal toplayan və qrant müsabiqəsinin büdcəsinə sığan layihələrə qrant ayrılır.

**Müsabiqəyə müraciət üçün son tarix:** 16.08.2024

**Sənədlərin qəbulu üçün elektron poçt:** musabige@edu.gov.az

**Ünvan:** Bakı şəhəri, Xətai prospekti 49

Layihə təklifi forması

CV forması